DÖVLƏT VERGİ XİDMƏTİ

# "Fərqlənmə nişanı" alaraq fəaliyyət göstərən vergi ödəyicilərinin nəzərinə

**Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən 01.01.2022-ci il tarixdən etibarən**

Sərnişin və yük daşıma fəaliyyəti növü üzrə təqvim ayının sonunadək hesablanmış sadələşdirilmiş verginin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi ilə yanaşı eyni vaxtda icbari tibbi sığorta haqqını da tam məbləğdə ödəməklə ödəniş sənədləri və ərizə ilə birlikdə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma həyata keçirildikdə isə Bakı Nəqliyyat Agentliyinə) təqdim etməklə istəyinizə uyğun olaraq növbəti ay, rüb, yarım il və ya il üçün ciddi hesabat blankı olan "Fərqlənmə nişanı" almalısınız.

* Qeyd: Bu fəaliyyətə görə vergi orqanına bəyannamə təqdim edilmir.

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

“Fərqlənmə nişanı”nın alnması ilə bağlı ödənilməli olan aylıq vergi, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqı ilə bağlı ətraflı məlumatla “Sərnişin və yük daşıma fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqı” adlı bukletdən tanış ola bilərsiniz.

**BAKI — 2022**